https://doi.org/10.36719/2706-6185/44/54-58

**Zümrüd Qəhrəmanova**
Azərbaycan Dövlət Aqrar Universiteti
tarix üzrə fəlsəfə doktoru
https//orcid.org/0009-0002-2973-6719
zumrud.q@mail.ru

# Qədim Alban məbədində (Govurqala) erməni saxtakarlığı

**Xülasə**

Qafqaz mədəniyyətləri içərisində Azərbaycanda qorunub saxlanan qədim Alban dövlətinin özünəməxsus təkrarolunmaz maraqlı mədəniyyəti, incəsənəti həmişə diqqət mərkəzində olmuşdur. Ancaq bədnam qonşumuz ermənilər daim bizim maddi mədəniyyət abidələrimizə təcavüz ediblər. Bədnam qonşularımız nə qədər bizim tarixi özününküləşdirmək istəsələr də, alban tarixşünaslığına hücum etsələr də, tarixi faktlar, arxeoloji və yazılı mənbələr əsasında aparılan araşdırmalar onların yalanlarını bir daha üzə çıxarır.

Azərbaycan arxeoloqlarından R. M. Vahidov, R. B. Göyüşov Ağdam rayonu Sofulu kəndi yaxınlığındakı Govurqala abidəsində tədqiqatlar aparmışlar. Görkəmli arxeoloqlarımızdan olan R. M. Vahidov erməni “tarixçiləri” tərəfindən Tiqranakertin Govurqala abidəsi ilə eyniləşdirilməsinə qarşı çıxmış, bu abidənin Tiqranakert olmamasını göstərmişdir. R. B. Göyüşov Govurqala abidəsində apardığı tədqiqatlar nəticəsində müəyyənləşdirmişdir ki, bu yaşayış yeri Moisey Kalankatuklunun “Alban tarixi”ndə adını çəkdiyi və hökmdar Mömin III Vaçaqanın yay iqamətgahının yerləşdiyi Aluen şəhəridir. Onda Şahbulaq qalası yaxınlığında Tərnəüt kəndinin ərazisində yerləşən abidə Aluen şəhərinin qalıqlarıdır. Bu şəhərdə 498-ci ildə kilsə məclisi çağırılmış, qanunlar qəbul edilmiş və alban dilində ilk yazılı sənəd tərtib edilmişdir. Butun bunların əsasında deyə bilərik ki, Govurqalanı mənbələrdə adı çəkilən Akna şəhəri ilə eyniləşdirmək mümkündür.

***Açar sözlər:*** *məbəd, yazılı mənbələr, din, xaç, arxeoloji qazıntılar*

**Zumrud Gahramanova**
Azerbaijan State Agrarian University
PhD in History
https//orcid.org/0009-0002-2973-6719
zumrud.q@mail.ru

# Armenian Forgery in the Ancient Albanian Temple (Govurgala)

**Abstract**

Among the cultures of the Caucasus, the focus has always been on the unique and interesting culture and art of the ancient Albanian state preserved in Azerbaijan. However, our notorious Armenian neighbors constantly encroached on our material cultural monuments. No matter how much our shameful neighbors want to appropriate our history and attack Albanian historiography, research carried out on the basis of historical facts, archaeological and written sources reveals their lies.

Azerbaijani archaeologists R. M. Vahidov, R. B. Goyushov conducted research at the Govurgala monument near the village of Sofulu, Aghdam region. One of our prominent archaeologists R. M. Vahidov opposed the identification of Tigranakert with the Govurgale monument by Armenian “historians” and pointed out that this monument is not Tigranakert. R. B. Goyushov determined as a result of his research at the Govurgale monument, established that this place of residence was the city of Aluen, where the summer residence of the ruler Momin III Vachagan, mentioned by Moses of Kalankatuk in the “History of Albania,” was located. Then the monument, located on the territory of the village of Tarnaut near the Shahbulag fortress, is the remains of the city of Aluen. In this city in 498, a church council was convened, laws were adopted and the first written document in the Albanian

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

language was compiled. Based on this, we can identify Govurgala with the city of Akna mentioned in the sources.
***Keywords:*** *temple, written sources, religion, cross, archaeological excavations*

## Giriş

Qafqaz mədəniyyətləri içərisində, Azərbaycanda qorunub saxlanan qədim Alban dövlətinin özünəməxsus təkrarolunmaz maraqlı mədəniyyəti, incəsənəti həmişə diqqət mərkəzində olmuşdur. Qafqazda yaşayan digər xalqlar da qədim alban mədəniyyətindən uzun illər faydalanaraq, özlərinin memarlıqlarını və mədəniyyətlərini inkişaf etdirmişlər. Lakin bəziləri bu gözəllikdən mənəvi zövq almaq, onu olduğu kimi yaşatmaq əvəzinə ona düşmən kəsiliblər. Ancaq bədnam qonşularımız olan ermənilər daim bizim maddi mədəniyyət abidələrimizə təcavüz ediblər, saxtakarlılqlar edib özlərinə məxsus olmayan tarix yazmaq istəyiblər. Buna baxmyaraq, bədnam qonşularımız nə qədər bizim tarixi özününküləşdirmək istəsələr də, alban tarixşünaslığına hücum etsələr də, tarixi faktlar, arxeoloji və yazılı mənbələr əsasında aparılan araşdırmalar onların yalanlarını bir daha üzə çıxarır.

Məlumdur ki, Albaniyada ilk orta əsrlərdə (V əsr) qarqar dilində 52 hərfdən ibarət müstəqil alban yazısı meydana gəlmişdir. Albanşünaslığın tarixində ən mühüm hadisələrdən biri, heç sözsüz ki, alban əlifbasının aşkar edilməsi ilə bağlıdır. Z. Aleksidze yazır ki, "Alban əlifbasını 1937-ci ildə Yerevanda erməni əlyazmaları arasında, sonralar Əlyazmalar İnstitutunun banisi və ilk direktoru, İlya Abuladze aşkara çıxarmışdır. Elmi albanologiya öz təvəllüd gününü buradan başlayır" (Şükürov, 2023, s. 10). Burada əsas kriteriyalardan biri kimi albanşünaslığın erməni tarixşünaslığının monopoliyasından çıxarılması və Azərbaycan albanşünaslığının formalaşması götürülə bilər (Vahidov, 1964, s. 10). Alban əlifbasının aşkar edilməsi ilə albanşünaslığın tarixində, ilk dəfə olaraq albanşünaslıqda xronoloji-problem baxımından daha bir elmi istiqamət-alban yazılı mətnlərinin deşifrə edilməsi sahəsində tədqiqatlar meydana gəlməyə başladı.

Albaniya dövlətinin mövcud olduğu dövrdə alban əlifbası, alban yazısı zaman-zaman müxtəlif maneələrin törəməsinə baxmayaraq, xalqımızın tarixi abidələri olaraq, mənsub olduğu xalqın adı ilə bağlı şəkildə tanınır (Hacıyev, 2008, s. 30). Albaniya ərazisi I-IV əsrlərdə Arşaki, VII-VIII əsrin əvvəllərindək isə Mehranilər sülaləsinin hakimiyyəti altında olmuşdur. Həmin dövrdə alban yazısı və alban-aran dili hökm sürürdü. Abidələrin üzərindəki erməni yazıları isə bir qayda olaraq sonradan saxtalaşdırmaq məqsədilə qoyulmuş izlərdir (Hacıyev, 2008, s. 22).

## Tədqiqat

Lakin XIX əsrin əvvəllərində Türkiyədən və İrandan ermənilərin çar Rusiyasının əli ilə Cənubi Qafqaza, o cümlədən azlıqda qalan xristian albanların yaşadıqları Qarabağın dağlıq hissəsinə kütləvi köçürülmələri ilə bölgədəki abidələrin süni şəkildə erməniləşdirilməsinə başlanıldı. Çünki 1836-cı ilə Alban katalikosluğu rəsmi ləğv edilənədək Azərbaycanda islam dini özünə dərin kök salmışdı. Xristian alban abidələri diqqətdən kənarda qalmışdı. Bunun nəticəsi idi ki, indiki Ermənistan (Qərbi Azərbaycan) Azərbaycanın Yuxarı Qarabağ ərazisindəki xristian alban abidələrində erməni, indiki Gürcüstan Respublikası ərazisindəki abidələrdə gürcü elementləri formalaşdırılırdı (Hacıyev, 2004, s. 15).

Qarabağ ərazisində tarixən bütün dinlərə rəğbətlə yanaşılmışdır. Bu proses arxeoloji qazıntılar nəticəsində aşkar edilmiş maddi mədəniyyət nümunələri ilə təsdiq olunur. Aşkar edilmiş kurqan dəfn adətinin, küp, daş qutu qəbirlərin dəfn edilmiş bütlərin, üzərində xaç obrazlı naxışları olan nişan daşlarının tədqiqi bunu deməyə əsas verir. A. Məmmədova görə ilk orta əsrlərdə xaç daşlarında bütpərəstlik simvolları daha çox öz əksini tapmışdır (Məmmədov, 1993, s. 91). Ancaq alban abidəsi ilə erməni abidəsi arasında fərqlər var. Alban xaçları erməni xaçlarından fərqlidir. Burada söhbət üzərində xristianlığa qədər mövcud olmuş dini ayinlərin simvolikası əks olunmuş, xristian və müsəlman qəbirləri və yazılı abidə daşlarından gedir. Alban xaç daşları üzərindəki obrazlar çoxlu yüzilliklər keçdiyinə görə əvvəlcə iki, sonralar üç din hakimiyyəti altında toplanmış harmonik olaraq yüzlərlə mümkün yazılı daşların üzərində əks olunmuş ayin simvolikasıdır. Buradan aydın olur ki, bütün özünəməxsus, orijinal və köklü fərqi olan xaçdaş, başdaş və nişandaş erməni xaçından fərqlidir (Əliyev, 2007). Xaç daşlarda başlıca cəhət odur ki, onlar təkcə xaç deyil, məqsədli bədii icra olunmuş yazılı daş obrazdır. Öz mənasına görə bu xaçlar xristianlığa qədərki dini ayinlərlə bağlıdır və həyat

ağacının-xaçın təsvirinə yaxınlaşır. Alban xaçı xristanlığa qədərki inamların və kainatın dərketmənin əlamətlərini özündə cəmləşdirən işarələrə malikdir. Onun bütün kompozisiyaları göylə yerin əlaqəsi, günəş, işıq və məhsuldarlıq simvolu kimi əks olunmuşdur (Hacıyev, 2008, s. 29).

Erkən orta əsr Qarabağın şəhərtipli ən möhtəşəm yaşayış məskənlərindən birinin xarabalığı indiki Ağdam rayonun Boyəhmədli kəndində yerləşən Govurqala abidəsidir. Govurqala şəhər yeri haqqında akademik Z. M. Bünyadov, İ. Q. Əliyev, arxeoloqlardan R. M. Vahidov, İ. M. Cəfərzadə, S. M. Qazıyev, R. Göyüşov və başqaları məlumat vermişlər. Arxeoloq R. M. Vahidovun 1971-ci ildə apardığı qazıntılar şəhərin xarakterini, onun plan qurluşunu, dövrünü aydınlaşdırmağa əsas vermişdi (Vahidov, 1965, s. 167).

Məbədin mehrab hissəsi yarımdairəvi aspida formasındadır. Məbədin döşəməsi də ustalıqla yonulmuş daşlardan ibarətdir. Bəzi döşəmə daşlarının üzəri müxtəlif cizgilərlə naxışlanmışdır. Tədqiqatçı R. Vahidov bu təsvirlərin dini etiqad ilə əlaqəli olduğunu qeyd etmişdir. Govurqalada aşkar edilən daş məmulatı içərsində əsas yeri xaçlar tuturdu. Belə ki, məbədin kiçik otağının qərb divarının xarici üzünü təşkil edən daşlardan birinin üzərində qazma üsulu ilə həkk olunmuş xaç şəkli vardır (Hacıyev, 2000). Üçbucaq şəkilli dördqanadlı olan bu xaçın diametri 60 sm olan medalyonun içərsində yerləşmişdi. Xaçın böyük ustalıqla düzəldilməsi və bütün detalların simmetriyası nəzərə alındığını qeyd etmək olar. Xaçların bəziləri daşdan yonulmuş, bəziləri isə daş lövhələr üzərində qazma yolu ilə düzəldilmişdi. Burdan tapılmış daşların bir çoxunu həndəsi və nəbati naxışlar bənzəyir (Vahidov, 1965, s. 174-175).

R. M. Vahidovun tədqiqatları nəticəsində məlum olmuşdur ki, şəhər antik dövrdə formalaşmış, erkən orta əsrlərdə mühüm şəhərlərdən biri olmuşdur (Vahidov, 1964, s. 20). Həmçinin R. M. Vahidov ilk dəfə Azərbaycanda alban xristian abidələrini öyrənmişdir (Vahidov, 1965, s. 167). Daha sonralar Govurqala yaşayış yerində qazıntı işlərini R. Göyüşov davam etdirmişdir (Göyüşov, 1993, s. 25). Məbəd və onun ətrafında toplanmış maddi mədəniyyət qalıqları nəticəsində müəyyən edilmişdir ki, şəhərdə dulusçuluq, metalişləmə və daşişləmə sənətkarlığı öz dövrünün yüksək inkişaf səviyyəsinə çatmışdır. Həmçinin qazıntılar zamanı ilk orta əsr abidələrində olduğu kimi Govurqalada da müstəvi və yarımmüstəvi formada kirəmitlərə də rast gəlinmişdir (Xəlilov, 2010, s. 102). Govurqalada arxeoloji qazıntılar zamanı erkən orta əsrlərə dövründə Albaniyada hökmdar nəslinə aid qəbiristanlığın olmasına əsaslanan professor R. B. Göyüşov Govurqalanı Alban hökmdarlarının yay iqamətgahı kimi şöhrət qazanmış, Bərdə – Dəbil (Dvin) ticarət yolunun üzərində yerləşən Aluen şəhərinin qalıqları hesab edirdi (Hacıyev, 2000, s. 26).

Həmçinin Govurqalanın tarixi adı barədə tədqiqatçılar müxtəlif fikirlər söyləmişdilər. “Erməni tədqiqatçıları” əsassız surətdə Govurqalanın Qafqaz Albaniyası ərazisində guya mövcud olmuş Tiqranakert şəhəri olduğunu qeyd etmişlər. S. T. Yeremyan 1951-ci ildə nəşr etdirdiyi dərsliyin atlasında Ağdam rayonun Tərnəüt kəndi yaxınlığında Tiqranakert adlı yaşayış məntəqəsinin olduğunu qeyd etmişdir. O, eyni adlı digər bir şəhər yerinin Şəmkir çayının yuxarı axarında olduğunu bildirmişdi. Alışan, S. Calalyan, M. Barxudaryan Tiqranakerti Ağdam-Ağdərə şosse yolunun kənarında yerləşən Şahbulaq qalası yaxınlığındakı Tərnəküt kəndinin qərb tərəfində lokallaşdırırlar (Xəlilov, 2010, s. 56).

Tədqiqatçı R. M. Vahidov mənbə məlumatlarına və göstərilən coğrafi ərazidəki arxeoloji abidələrin müqayisəsinə əsasən Tiqranakertin Govurqala (Ağdam) ilə eyniləşdirilməsi fikrindən yan keçmişdi.

S. T. Yeremyan Tiqranakert adı ilə iki yaşayış məntəqəsinin olduğunu göstərərkən VII əsr tarixçisi Sebeosun və X əsr tarixçisi Asoxivin qeyri-müəyyən məlumatlarını əsas götürmüşdür.

S. Q. Bərxudaryan S. Calalyana və M. Barxudaryana əsaslanaraq kolxozçular tərəfindən təsadüfən aşkarlanmış daş sarkofaqa əsasən Govurqala abidələrinin Tiqranakertə aid olduğunu bildirsə də, onun əsaslandırdığı heç bir mənbədə Tiqranakert adı çəkilmir. İki çatılı qapağın bir üzündə 4 sətirdən ibarət erməni əlifbası ilə yazı həkk edilmiş daş sarkofaqın uzunluğu 1,77 m, eni 0,61 m, hündürlüyü 0,28 metrdir. Yuxarıda da qeyd etdiyimiz kimi, daş qapaq Govurqala məbədinin şərq divarının yaxınlığında tapılsa da, qapağın çıxarılması ilə əlaqədar qazılmış çala yoxalanılarkən orada sarkofaqın olmadığı müəyyən edilmişdir. Buradan belə nəticəyə gəlmək olar ki, ya qapaq həmin əraziyə kənardan gətirilib, ya da abidə dağıntıya məruz qalaraq kənara atılmışdır. Ermənilərin

üzərində erməni yazıları və ya "xaçı" olan daşları özləri ilə gəzdirərək ayrı-ayrı abidələrin yanında basdırmaları, yaxud divara hörərək şəklini çəkmək kimi saxtakarlıqları çoxdan məlumdur. Sarkofaqın daş qapağı üzərindəki yazı epiqrafist S. Barxudaryan tərəfindən oxunaraq qəbrin X əsrin əvvəllərində alban çarlığını bərpa etmiş alban çarı Hamamın qardaşına aid olduğu qənaətinə gəlinmişdir (Vahidov, 1965, s.177).

Alban çarı ailəsinə aid olan qəbir daşının üzərindəki epitafiyanın erməni dilində və erməni əlifbası ilə yazılması belə izah oluna bilər ki, VII-VIII əsrlərdə Cənubi Qafqazda ağalıq uğrunda Bizans imperyası ilə Ərəb xilafəti arasında gedən mübarizədə Xilafət Bizansa qarşı yönələn bütün qüvvələri müdafiə edirdi.

Elə həmin vaxt erməni Qriqoryan kilsəsinin katalikosu İlyanın Ərəb Xəlifəsi Əbdülməlikə yazdığı Alban kilsəsinin Bizans kilsəsinə tərəfdar çıxdığını və onların dini ayinlərini təbliğ etdiyini bildirdiyi fitnəkar məktub da mühüm rol oynamışdı. Həmin məktubdan qəzəblənən Əbdülməlik 704-cü ildə alban kilsəsinin Üçmüədzinə tabe edilməsi, kilsələrdə dini ayinlərin erməni dilində aparılması, katalikos Nerses Bakur və onun yaxın adamlarının edam edilməsinə göstəriş verir. Nəticədə, Alban kilsəsi öz müstəqilliyini tədricən itirir, alban əlifbası ilə yazılmış və başqa dillərdən tərcümə edilmiş dini kitablar ya yandırılır, ya da üzü köçürülərək "saxta erməni tarixi" yaradılır, əsilləri isə məhv edilirdi. Ona görə də Azərbaycan Albaniyasının istər Qarabağ, istərsə də digər vilayətlərindəki alban xristian epiqrafik abidələrində IX əsrdən başlayaraq erməni əlifbası və erməni dili tətbiq olunmağa başlayır ki, bu, özünü sonrakı mərhələlərdə də aydın göstərir. Bu baxımdan tam əminliklə deyə bilərik ki, daş sarkofaqın qapağı da erməni dilində yazılmış alban abidəsidir. Erməni alimlərinin özlərinin də qəbirin Alban sülaləsinin nümayəndəsinə aid olduğunu etiraf etdiklərini əsas götürsək, onda erməni alimlərinin son illərdə Ağdamda apardıqları arxeoloji qazıntıların nəticələrinə əsasən söylədikləri fikirləri də əsassız hesab olunur. Belə ki, Tərnəüt kəndi yaxınlığında işğal dövründə apardıqları arxeoloji qazıntıların yeri heç bir tarixi mənbəyə əsaslanmadığından Tiqranakert adlandırırlar. Bununla yanaşı, həmin ərazidən tapdıqları daş lövhənin üzərindəki təsvirin Alban çarı III Mömün Vaçaqana aid olduğunu bildirirlər. Onlar onu Vaca Barpaş deyə adlandırırlar. Yeri gəlmişkən ermənilər Vaçaqana da Vaçe deyirlər. Baripaş isə Parfiya mənşəli sözdür və ermənilər onu mənimsəyib (Xəlilov, 2011).

Nəzərə alsaq ki, III Mömün Vaçaqanın yay iqamətgahı da Aluen şəhəridir, onda Şahbulaq qalası yaxınlığında Tərnəüt kəndinin ərazisində yerləşən abidə Aluen şəhərinin qalıqlarıdır. Bu şəhərdə 498-ci ildə kilsə məclisi çağırılmış, qanunlar qəbul edilmiş və alban dilində ilk yazılı sənəd tərtib edilmişdir. Butun bunların əsasında deyə bilərik ki, Govurqalanı mənbələrdə adı çəkilən Akna şəhəri ilə eyniləşdirmək mümkündür (Xəlilov, 2007).

Son illər erməni "tədqiqatçısı" H. Petrosyan, Ağdam şəhərindən 10 km şimalda, e.ə I əsrdə Tiqran tərəfindən salınmış Tiqranakert şəhərinin tapılması ilə bağlı cəfəngiyat dolu məlumatlar vermişdir. M. C. Xəlilov da Tiqranakertlə bağlı araşdırmasında deyir: "Tiqranakert Tiqranın şərəfinə adlansa belə, bu şəhərin erməni yaşayış məntəqəsi olduğunu heç cürə sübut etmir və "Tiqran" İran mənşəli ad idi və albanlar arasındada yayıla bilərdi" (Xəlilov, 2010, s. 59). 1751-ci ildə Qarabağ xanı Pənahəli xan Şahbulaqda tikdirdiyi qalanın xarabalıqlarını qədim Tiqranakert adlandıran, H. Petrosyan görünür ki, antik dövr abidəsi ilə son orta əsr abidəsini ayıra bilməyəcək qədər savadsızdır (İsmayılov, Ağayev, 2007).

## Nəticə

Müzəffər ordumuzun torpaqlarımızı işğalçılardan azad etməsi ilə erməni vandallarının torpaqlarımızda qeyri-qanuni olaraq apardıqları arxeoloji qazıntılara son qoyuldu, dünya və Qafqaz tarixində xüsusi yeri olan Albaniyanın tarixinin total şəkildə saxtalaşdırılmasının və məhv olunmasının qarşısını aldı.

## Ədəbiyyat

1. Əliyev, T. R. (2007). Qarabağın tarix və mədəniyyət abidələrinə qarşı terror. *Azərbaycan arxeologiyası jurnalı*, 3-4, 105-114.
2. Göyüşov, R. B. (1993). *Qarabağın keçmişinə səyahət*. Azərnəşr.
3. Hacıyev, Q. Ə. (2008). *Bərdə şəhəri coğrafi, siyasi və mədəni tarixi*. Uniprint.

4. Hacıyev, Q. Ə. (2004). *Qarabağın maddi və mənəvi mədəniyyəti. Qarabağ: suallar və faktlar.* Nurlan.
5. Hacıyev, Q. Ə. (2000). Bərdənin yerləşdiyi ərazi və onun təbii-coğrafi xüsusiyyətləri. *Tarix və onun problemləri*, 2, 26-31.
6. Hacıyev, Q. Ə. (2000). *Qədim Bərdə şəhərinin strateji mövqeyi və müdafiə istehkamları haqqında.* AEA Tİ. Azərbaycan tarix qurumu.
7. Xəlilov, M. C. (2011). *Albaniyanın xristian abidələri* (IV-X).
8. Xəlilov, M. C. (2007). Albaniyanın ilk orta əsr maddi-mədəniyyəti. *Azərbaycan arxeologiyası*, 1-2, 38-54.
9. Xəlilov, M. (2010). *Albaniyanın yaşayış yerləri* (IV–X əsrlər).
10. İsmayılov, F., Ağayev, Ə. (2007). *Alban mədəniyyətinə erməni təcavüzü.*
11. Məmmədov, A. M. (1993). *Gəncəbasar IV-XIII əsrlərdə* (tarixi arxeoloji tədqiqat). Elm.
12. Şükürov, K. K. (2023). *Azərbaycan Albanşünaslığının (Qafqaz) tarixinə dair (Dünya üzrə tədqiqatlar kontekstində xronoloji biblioqrafiya ilə.*
13. Vahidov, R. M. (1965). *Govurqalada arxeloji qazıntılar*. AMM, VI cild.
14. Vahidov, R. M. (1964). *Torpaqqalada arxeoloji tədqiqat işlərinin ilk yekunları.* 1963-cü il arxeoloji qazıntıların yekunlarına həsr olunmuş sessiya. Məruzə və məlumatların tezisləri.

Daxil oldu: 17.09.2024
Baxışa göndərildi: 21.11.2024
Təsdiq edildi: 15.01.2025
Çap olundu: 28.02.2025